# QARABAĞ FAUNASININ QIRMIZI SİYAHISI

**Elşad Əhmədov**

*AMEA-nın Zoologiya İnstitutu*

Nadir və nəsli kəsilməkdə olan fauna növlərinin tədqiqi üzrə AMEA Zoologiya İnstitutunun mütəxəssisləri tərəfindən daim intensiv monitorinqlər aparılsa da, 30 ilə yaxın bir müddətdə işğal altında olan Qarabağ və ətraf ərazilərdə monitorinqlər aparılmamışdır, işğala qədərki tədqiqatları nəzərə almasaq, bu regionun faunası haqqında məlumat yoxdur. Kiçik Qafqazın böyük ərazisinin işğalı üzündən bir çox nadir və təsərrüfat əhəmiyyətli növlərin yaşadığı bu unikal regionun faunası nəzarətsiz qalmış, erməni vandalları tərəfindən qiymətli heyvan növləri məhv edilmiş, heyvanların sığındıqları mağaralar silah anbarına çevrilmiş, minalanmış sahələrdə iri heyvanlar minaya düşərək şikəst omuşdur. Bu ərazilərə uzunmüddətli ekspedisiyalar təşkil edilməli, növlərin inventarizasiyası aparılmalı, statusları müəyyənləşdirilməldir.

Azərbaycanın müasir faunasında həşəratlar 6000-dən artıq, onurğalılar isə 697 növlə təmsil olunur. 1989-cu ildə nəşr olunmuş Azərbaycanın "Qırmızı kitab"ının I nəşrinə 108 heyvan növü daxil edilmişdir ki, onlardan 14 növü məməli, 36 növü quş, 13 növü sürünən və suda-quruda yaşayan, 5 növü balıq və 40 növü həşəratlar sinfinə mənsubdur. 2013-cü ildə nəşr olunmuş Azərbaycan Respublikasının "Qırmızı kitab"ının II nəşrinə nadir, nəsli kəsilmək təhlükəsi altında olmaqla, qorunmasına ehtiyac yaranan 223 növ heyvan daxıl edilmişdir. Bunlardan respublikamızın hidrofaunasına daxil olan 1 növ Oligochaeta, 1 növ Crustacea, 1 növ Mollusca, 77 növ İnsecta, 9 növ Pisces, 6 növ Amphıbia, 14 növ Reptilia, 72 növ Aves, 42 növ Mammalia sinfinə aiddir.

"Qırmızı kitab"ın I və II nəşrlərinə salınmış və aparılmış mühafizə tədbirləri nəticəsində sayında əhəmiyyətli artım qeydə alınan növlərin siyahıdan çıxarılmasına və eyni zamanda saylarında azalmalar qeydə alınan fauna növlərinin siyahıya əlavə edilməsinə ehtiyac yaranmışdır. Şübhəsiz ki, 10 ildən bir beynəlxalq təcrübəyə əsaslanaraq, Azərbaycan Respublikasının "Qırmızı kitab"ında verilən siyahılar mütəmadi olaraq dəqiqləşdirilməli və yenidən nəşr edilməlidir.

2023-cü ildə nəşr edilməsi nəzərdə tutulan Azərbaycan Respublikasının "Qırmızı kitab"ının III nəşrinə nadir, nəsli kəsilmək təhlükəsi altında olmaqla, qorunmasına ehtiyac yaranan 279 heyvan növünün daxıl edilməsi nəzərdə tutulur. "Qırmızı kitab"ın II nəşrinə daxil edilmiş və III nəşrinə daxil edilməsi üçün 3 növ su onurğasızlarının və 9 növ balığın monitorinqinin aparılması ilə yanaşı, sədəf ilbizi – *Unio mingrelicus* Drouet, 1881 və tibb zəlisi – *Hirudo orientalis* Utevsky & Trontelj, 2005 növlərinin saylarının azalması məsələlərinə aydınlıq gətiriləcəkdir. Əməkdaşların aparacaqları monitorinqin nəticələrinə görə bu növlərin və 2 sümüklü balıq növünün "Qırmızı kitab"ın III nəşrinə daxil edilməsi məsələsinə baxılacaqdır.

Azərbaycan Respublikasının "Qırmızı kitab"ının II nəşrinə həşəratlar sinifinə aid 77 növ daxil edilmişdir. III nəşrdə 14 növün siyahıdan çıxarılması, 55 növün isə əlavə edilməsi ilə yeniləşmiş siyahıda olan növlərin sayının 118-ə çatdırılması təklif edilir, 6 növ sürünənin daxil edilməsi nəzərdə tutulur. Siyahıdan 4 növ quşun çıxarılaraq yaşıl siyahıya salınması və əvvəlki siyahıya 15 yeni növün daxil edilməsi, məməli heyvanların yenilənmiş siyahısına II nəşrdəki məməli heyvan növləri siyahısından 8 növ məməlinin çıxarılması və 1 növünün daxil edilməsi məsələlərinə də baxılacaqdır.